AMC

AZƏRBAYCAN MİLLİ CƏBHƏSİ

آذربایجان میللی جبهه سی




Azərbaycan Milli Cəbhəsinin Novruz Bayramı münasibəti ilə təbriki

Əziz həmvətənlər!

Millətlərin tarixində elə əhəmiyyətli günlər var ki, mahiyəti etibari ilə millətin milli ruhu ilə eyniləşmişdir. Millət öz halallıq anlayışını, dürüstlük və sevinc hislərini bu günə yükləmişdir. Min illər boyunca millətin tarixi xatirələrində yaşayan bu günlər milli kimliyin əmələ gəlməsində də müsbət rol üstlənir. Məsələn bir millətin bağımsızlıq günü bu növ önəmli günlərdən birisidir.

Ortaq Türk tarixinin və mədəniyyətinin rəmzlərindən biri olan bu günlərin biri də **Novruz** bayramıdır.Təbiətin tezələnməsi ilə eyni zamanda insanların münasibətləri də təzələnməli və köhnə ildəki xoşa gəlməz hadisələr yeni ilə daşınmamalıdır. Köhnə ildə gomulub qalmalıdır. Bu səbəblə də Novruz bayramı ilə bağlı olaraq Türk Düyasında, özəlliklə(xususi ilə) Azərbaycanda bir çox xalq deyimləri, rəqslər, oyunlar yaranmışdır. Bütün bu ənənələrimizin kökü isə Azərbaycanın çox əski tarixinə dayanmaqdadır.

Azərbaycan Milli Cəbhəsi Novruz bayramının Azərbaycan

tarixindəki əhəmiyyətinin fərqində olaraq bu əziz gündə millətimizin sevincinə şərik olur. Bu əziz gün münasibəti ilə millətimizi ürəkdən Təbrik edir və yeni ilin millətimizə xeyirli, uğurlu olmasını arzu edir. Bu bayram təbrikimizi Novruzla bağlı olaraq yazılmış xalq yaradıcılğı bir bayatı ilə paylaşırıq:

Qar yağıbdır dizəcən
Bakıdan Təbrizəcən
Gözləyirəm yolunu
Gələn il novruzacan

Azərbaycan Milli Cəbhəsi
2005.03.21